# Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu regional nəqliyyat bağlantısına yeni üstünlüklər qazandıracaq




Bu gün Bakıda "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda assosiasiyaya üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri, nəqliyyat və logistika şirkətlərinin yüksəksəviyyəli rəsmiləri daxil olmaqla ümumilikdə 10 ölkədən nümayəndə heyəti iştirak edib.

Tədbirdə Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun regional nəqliyyat bağlantısının əsas arteriyalarından biri kimi yüksəlişdə olduğu qeyd edilib.

Bildirilib ki, TBNM BA-ya üzv dövlətlər arasında sıx əməkdaşlıq çərçivəsində yük əməliyyatlarının idarə olunması üçün kompleks tədbirlər, o cümlədən müasir analitik informasiya sistemlərinə inteqrasiya və yüklərin real vaxt rejimində izlənməsi xidmətlərinin yaradılması həyata keçirilib. Sinqapurun "Global DTC" şirkətinin TBNM üçün "Digital Trade Corridor" multimodal platforması və "Fast Customs" platformasını təqdim etməsi ilə əməliyyatların şəffaflığı artırılıb və nəzarət mexanizmləri gücləndirilib. Bakı-Tbilisi-Qars dəmiryol xəttinin yükötürmə gücünün illik 1 milyon tondan 5 milyon tona çatdırılması və bu xətt üzrə yük əməliyyatlarının bərpa edilməsi xüsusilə qeyd olunub.

Tədbir iştirakçıları bildirib ki, əsas məqsəd yüklərin təhlükəsizliyini təmin etməklə, vahid tarifləri razılaşdırmaqla və yük axınının sürətini artırmaqla daşıma sisteminin səmərəliliyini artırmaqdır ki, bu da bütün tərəfdaşların tələbatını qarşılayacaq. Bu yanaşma Orta dəhliz ölkələrinə uzunmüddətli perspektivdə uğur qazanmağa imkan verəcək. Müzakirələrdən sonra TBNM BA Hüquqi Şəxslər Birliyinin TBNM-in inkişafı üzrə İşçi qrupunun 2025-ci il üçün təsdiqlənmiş tarif dərəcələri barədə məlumatı dinlənilib. Daha sonra Orta dəhlizlə bu il yükdaşıma planı və onun icra planı təsdiqlənib, həmçinin TBNM BA Hüquqi Şəxslər Birliyinin Çinin Sian şəhərində nümayəndəliyinin açılması barədə qərar qəbul olunub.

Sonda iclasın protokolu, "Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında" və "Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında" sazişlərin imzalanması mərasimi olub.

Tədbir işini "Xəzər dənizi vasitəsilə Orta dəhliz" ("Middle Corridor via the Caspian Sea") forumu ilə davam etdirib, dənizlə yükdaşımaların səmərəli təşkili, bu istiqamətdə görülə biləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2025.- 5 mart (№ 49).- S.4.